## Görkəmli Şəxsiyyətlərin fikirləri

“Xaqani Şirvani öz dövrünün işlənməkdə olan elmlərinin çoxuna, xüsusən də hikmət, nücum, müsiqi elmlərinə yaxşı bələd idi. Onun əsərlərində bu elmlərdən çox istilahlar var; o, tarixi də yaxşı bilirdi”.

**Məhəmmədəli Tərbiyət,**
*İctimai xadim, maarifçi*

Xaqani yaradıcılığında azadlıq meyli daha çox qüvvətlidir.

Xaqaninin gözəl əsərləri, məğrurluğu, dərin bilikli və hazırcavab bir adam olması Azərbaycan xalqının yaddaşında əsrlər boyu yaşamışdır.

**Həmid Araslı,**
*Əməkdar elm xadimi, ədəbiyyatşünas*

Xaqani zəmanəsindəki içtimai hadisələrə qarşı son dərəcə həssas olmuşdur. O, böyük bir ədəbi irs qoyub getmişdir.

**Məmmədağa Sultanov,**
*Şair, ədəbiyyatşünas*

Azərbaycan şairləri daha çox Xaqaninin şeir sənətinə yeni üslub gətirməsi ilə fəxr edirdilər. Xaqani bütün əsərlərini yüksək sənətkarlıqla yazmışdır.

**Balaş Azəroğlu,**
*Şair, dramaturq, ədəbiyyatşünas*

Xaqaninin vətənpərvərlik mövzusunda yazılmış əsərləri arasında “Savalan dağının tərifi” öz qiymətli fikri-bədii keyfiyyətləri etibarı ilə xüsusi yer tutur.

Xaqaninin əsərlərində Azərbaycan ruhu, türk ahəngi həmişə bariz şəkildə özünü göstərmişdir.

**Bəkir Nəbiyev,**
*Ədəbiyyatşünas*

Xaqani poeziyası öz dövründən başlayaraq bu günə qədər Şərqin, o cümlədən Azərbaycanın bir çox sənətkarları üçün örnək, nümunə olmuşdur.

Sənətin Xaqani zirvəsindən sonra şeirdə elə yeni qeyri-adi bir zirvə yaranır ki, bu zirvə ən yüksək, ən uca zirvə kimi qəbul olunur.

**Xəlil Yusifli,**
*Əməkdar elm xadimi, professor*

"Xaqani Şirvaninin iztirablarla dolu həyatı vətənpərvərlik üstündə köklənmişdir. O, saraylarda olduğu illərdə həmişə öz xalqını və qürbətdə olarkən Vətənini düşünmüş, bu böyük ideallara ürəkdən bağlı olmuşdur. Özünü "yoxsullar şairi Xəlqani" adlandırması da böyük sənətkarın millilik və vətənpərvərliyini, qürurunu və mərdanə simasını, xalqına bağlı olmasını aydın şəkildə ifadə edir. Ona görə də Xaqani Şirvani Azərbaycan ədəbiyyatının qürur və məğrurluq rəmzlərindən biri hesab olunur".

**İsa Həbibbəyli,**
*Əməkdar elm xadimi, professor*

"Xaqani Şirvani mübarizliyi, ictimai-siyasi-düşüncəsi və vətənpərvərliyi ilə müasirlərindən fərqlənir".

**Rafael Hüseynov,**
*Ədəbiyyatşünas, ictimai xadim, yazıçı*

"Xaqani və Nizami yaradıcılığı bir-birini təsdiq edən, tamamlayan, eyni bir dövrün poetik əks-sədası olan iki qüdrətli poetik mənbədir. Hər iki sənətkar dövrün ən mühüm məsələlərində eyni cəbhədə dayanır, eyni ideallarla çıxış edir. Xaqani ilə Nizamini təkcə saraylar deyil, bütün dövr, zaman, cəmiyyət narahat edir. Hər iki şair dövrünün hünərsiz, nadan hakimlərindən şikayətlərdə həmrəy və həmfikirdir. Hər iki şairin yaradıcılığında güclü bir inkarçılıq ruhu vardır. Xaqaninin "Töhfətül-İraqeyn", "Mədain xərabələr" və başqa əsərlərində, Nizaminin "Xəmsə"sində və lirik əsərlərində gözəlliyi təsdiqə yönələn bu inkarın parlaq nümunələri ilə qarşılaşırıq".

**Fazil Qaraoğlu,**
*Professor*